## “İdeoloji işin səmərəliliyinin artırılması istiqamətində tövsiyələr”

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının
müavini Aygün Əliyeva

**Hörmətli cənab başçı!**
**Hörmətli müşavirə iştirakçıları!**

Son illərdə əldə olunan nəticələr cənab İlham Əliyevin xalqın dəstəyinə söykənən, regionların davamlı sosial-iqtisadi inkişafını və bununla da vətəndaşlarımızın rifahının yaxşılaşdırılmasını təmin edən siyasətinin müdrikliyinə və uzaqgörənliyinə, hədəflərimizin əzəmətinə və reallığına inandırıcı sübutdur. Ölkə Prezidenti cənab İlham Əliyevin qəbul etdiyi qərarların, atılan addımların mahiyyəti əhaliyə böyük səmimiyyətlə və düzgün çatdırılanda müvəfəqiyyət tam mənası ilə təmin edilmiş olur. Bildiyiniz kimi, ölkədə aparılan siyasətin əhali arasında təbliği şəhər, rayon icra hakimiyyətlərinin gündəlik vəzifəsidir və təbliğatın əsasında Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin çıxışları, nitqləri, müsahibələri və məqalələri dayanır. Biz bu çıxışları dərindən təhlil edir və aparılan təbliğat işində məhz onlara söykənirik. Nəinki icra hakimiyyətinin ictimai siyasi şöbəsi, Cənab başçı, Sizin tövsiyənizlə bələdiyyələrdə yaradılan ictimai humanitar sektorlar da 28 iyun 2016-cı il tarixindən bu günədək ideolojin işin yerlərdə mütəşəkkil təşkil edilməsinə öz töhfələrini verirlər.Yalnız təqvim tədbirləri deyil, eyni zamanda birbaşa bələdiyyənin fəaliyyəti əks etdirən müxtəlif məzmunlu tədbirlər həyata keçirirlər. Məlumat üçün deyim ki, yaxın günlərdə bələdiyyə ərazisində yerləşən məktəblilər arasında vergi olimpiadasının keçirilməsi və mətbuat qarşısında görülən işlərin hesabatının təqdim edilməsi nəzərdə tutulub. Hər bələdiyyənin daxilində yaradılan ictimai sektorlar ərazilərin spesifik xüsusiyyətlərini bilməklə yanaşı, bələdiyyə-seçici münasibətlərinin tənzimlənməsinə xidmət edir, bələdiyyə qulluqçularının nüfuzunun artmasına öz müsbət təsirini göstərir.

### 1 Heydər Əliyev məfkurəsinin geniş təbliği

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır.Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və

elmin, təhsilin, mədəniyyətin inkişafı və ölkəmizin əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi əbədi surətdə Bütün dövrlərin ən böyük Azərbaycanlısı Heydər Əliyevin adı ilə bağlıdır.

"Yeni Azərbaycan Partiyası və Heydər Əliyev Məfkurəsi" adlı interaktiv mühazirə, 2015-ci ildə **6 görüş – 1500 nəfər şagird, 2016-cı ildə 8 görüş və 1250 nəfər** şagirdin iştirakı təmin edilmişdir. O cümlədən, **"Azərbaycan Səninlədir-Sənsiz deyil" adlı hər il təşkil olunan yaradıcılıq festivalları, "Ulu öndər estafeti"** adlı idman yarışları, **"Ulu Öndərə məktub"** mövzusunda inşa yazı müsabiqələri, Ulu Öndərin izi ilə tarixiləşmiş **Naxçıvan şəhərinə** səfər, **«Müstəqilliyim, partiyam, əbədiyyətim»** adlı tədbir, Ümummilli Liderin ideyalarına əbədi sədaqət nümayişinin bariz nümunəsi olaraq dəfələrlə Heydər Əliyev mərkəzinə ekskursiyalar, bir qrup Binəqədi gənclərinin Heydər zirvəsinə yürüşü və s. tədbirlər keçirilmişdir.

**2. Cənab Prezidentin gördüyü işlərin təbliğatı ilə bağlı**

İlk növbədə hər həftənin cümə axşamı ölkədə bütün sahələr üzrə görülən işlərlə bağlı əməkdaşlarımız, bələdiyyələr, müxtəlif qurumların iştirakı ilə rayon icra hakimiyyətində keçirilən məlumat saatlarini qeyd etmək istərdim. Məlumat saatının birinci hissəsi həftə ərzində ölkədə gedən işlərə diqqət cəlb etməklə,2-ci hissəsi əsasən tematik şəkildə təşkil olunur. Hər dəfə müxtəlif ictimai-siyasi əhəmiyyət kəsb edən mövzular əməkdaşlarımız və ya müstəqil ekspert tərəfindən izah olunur.Saatın sonunda məruzəçi auditoriyanı maraqlandıran suallara cavab verir.

Ötən dövr ərzində Cənab Prezidentin gördüyü işləri yerlərdə təbliğ etmək məqsədilə rayonun **Facebook səhifəsindən də** geniş istifadə olunmuşdur.

Məlumat üçün bildirək ki, rayonun rəsmi Facebook səhifəsində hər gün salamlaşmadan sonra **ilk rubrika** Cənab Prezidentin gördüyü işlərə həsr edilir. Yerləşdirilən məlumatların daha çox yayımlanmasını təmin etmək məqsədilə məlumatların sonunda **#Bineqedirayonu #My #President #Ilham # Aliyev** haştagları müəyyən edilmişdir.

Rayonun icra nümayəndələrinin və bələdiyyələrin səhifələrini idarə edən adminlər tərəfindən bu istiqamətdə işin düzgün qurulması məqsədilə onlarla maarifləndirici layihələr, seminarlar və təlimlər həyata keçirilmişdir.

Eyni zamanda **Sizin tapşırığınıza uyğun olaraq** rayon ərazisində yerləşən bütün təhsil, məktəbəqədər təhsil, səhiyyə və mədəniyyət müəssisələrində maarifləndirici görüşlər keçirilmişdir.

O cümlədən, ötən dövr ərzində Cənab Prezidentin gördüyü işləri yerlərdə təbliğ etmək məqsədi ilə dəfələrlə rayon İcra Hakimiyyətinin başçısının təhsil, məktəbəqədər təhsil, səhiyyə işçiləri ilə, ağsaqqallarla, din xadimləri ilə, qadınlarla, ictimai təşkilatlarla və xüsusilə də gənclərlə görüşləri təşkil edilmişdir.

Təklif

- ✓ Eyni zamanda təbliğat işlərini gücləndirmək məqsədilə YAP və iqtidaryönlü QHTlərin təmsilçilərindən, qadınlardan, gənclərdən ibarət təşviqat qruplarının yaradılması daha yaxşı nəticələr verə bilər. Təklif etdiyimiz bu qruplar rayonun idarə, müəsisə və təşkilatlarında mühazirələr oxumaqla yanaşı, təşkil edilən konfrans, dəyirmi masa və digər tədbirlərdə çıxış edərək, dövlət siyasətinin izah olunmasında yaxından iştirak edəcəklər.

**3. QHT- İctimai Birliklərlə işin qurulması**

Rayon ərazisində 27 sayda İctimai birliyin rayon təşkilatı fəaliyyət göstərərək, RİH ilə əməkdaşlıq edir, RİH tədbirlərində iştirak edir. Ötən dövr ərzində Binəqədi RİH-nə rəsmi və qeyri-rəsmi şəkildə 98 QHT müraciət etmişdir. Müraciətlərdə əsasən bayram və əlamətdar günlərin və sosial aksiyaların keçirilməsinə dəstək verilməsi xahiş edilmişdir. Qeyd edilən müraciətlərin əksəriyyəti dəstəklənmiş və tədbirlərin keçirilməsi təmin edilmişdir. Eyni zamanda rayonda fəaliyyət göstərən qeyri hökümət təşkilatlarının, ictimai fəallığı və istedadı ilə seçilən gənclərin müvafiq qurumlar tərəfindən elan olunan qrant müsabiqələrində yaxından iştirak etmələri də tərəfimizdən təşviq olunmuşdur. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun qrant müsabiqələrində qalib gəlmiş **57 nəfər gəncin** fərdi layihəsinin, eləcə də aparıcı gənclər təşkilatlarından olan (ATGTİ), (AGAT), "ASAN Könüllüləri Gənclər Təşkilatı", Gənclər üçün Təhsil Mərkəzi, "Gənclərin Həmrəyliyinə Dəstək" İctimai Birliyi, Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı, "Gənc Psixoloqlar" İB, "Müasir Gənclər Klubu" MMC, "İrəli" İB və rayon ərazisində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının layihələrinin həyata keçirilməsinə köməklik göstərilmişdir.

Bundan başqa İctimai Şuranın yaranması və fəaliyyəti vətəndaş inistitutlarının və QHTlərinin rayonun ictimai həyatında aktivliyinə öz müsbət təsirini göstərmişdir. Xüsusilə müxtəlif aktual mövzularla bağlı ictimai şuranın üzvlərinin rəy və təklifləri rayon icra hakimiyyətinin müvafiq şöbəsi tərəfindən təhlil edilir və yönləndirilir.

Təklif

- ✓ Eyni zamanda şöbə gələcəkdə İctimai iştirakçılığın daha da yaxşı təmin edilməsi üçün illik iş planına uyğun olaraq Şura ilə koordinasiyalı işi təkmilləşdirəcək və ictimai nəzarətin təmin edilməsi məqsədilə sakinlərimizi inzibatçılıqla deyil, könüllü şəkildə bu işlərə cəlb etmək üçün fəaliyyət mexanizmi quracaq .
- ✓ QHTlərlə görüşlərin intensivləşməsi, əməkdaşlıq münasibətlərinin dərinləşməsi də qarşıya qoyduğumuz hədəflərdən biridir.
- ✓ Yeni yaranmış ictimai təşkilatlarla fərdi qaydada görüşlərin keçirilməsi
- ✓ Növbəti ilin ölkəmiz üçün ictimai siyasi əhəmiyyət kəsb edən il olduğunu nəzərə alaraq Rayon ərazisində yerləşən digər siyasi partiyalar barədə məlumat bazasını dərinləşdirəcək və bu istiqamətdə fəaliyyətimzi ciddi təhlil edəcəyik.

**4. <u>Müharibə və əmək veteranlarına, şəhid ailələrinə xüsusi diqqət</u>**

Bunların içərisində tarixi-əlamətdar günlərin qeyd edilməsi ilə bağlı keçirilən tədbirlər,eyni zamanda “Güllə yağışı” abidəsinin, rayonumuzun Milli Qəhrəmanlarının büstlərinin ucaldıldığı Milli Qəhrəmanlar parkının, Əməkdar jurnalist, Milli Qəhrəman Alı Mustafayevin 65 illik yubileyi münasibətilə barelyefinin, polkovnik-leytenant Sənan Axundovun xatirə lövhəsinin açılışı, Milli qəhrəman Fərhad Hümbətovun adına salınmış pakda onun büstünün, milli qəhrəman Famil İsgəndərovun xatirə lövhəsinin qarşısında tədbirlərin keçirilməsi, rayon ərazisində, eləcə də məktəblərin ərazisində ucaldılmış 17 şəhidimizin büst və barelyeflərinin mütəmadi olaraq “Qəhrəman ruhlu küçələr” aksiyası çərçivəsində gənclərimiz tərəfindən təmizlənməsi, ətrafında abadlıq işlərinin aparılması, şəhid, milli qəhrəman ailələrinin, Qarabağ qazilərinin evlərinin ziyarət olunması gənclərimizdə qələbəyə inam və böyük ruh yüksəkliyi yaradır.

Bundan başqa aprel ayında təmas xəttində baş verən hadisələrlə bağlı gənclərin **“Şəhidlər Ölməz”! “Vətən Bölünməz”! adlı dəstək aksiyası, "Torpaq uğrunda ölən varsa Vətəndir", “Vətən Bizi Səsləyir – Yolumuz Qarabağa”!, Hərəyə bir bayraq verək”, Hər şey Vətən üçün”! “Hərb tariximiz”,“Aprel Fatehləri” və “Qarabağ dastanı”** adlı geniş tərkibli layihələr həyata keçirilmişdir. **“Qarabağ dastanı”** adlı layihədə rayonun **32 ümumtəhsil məktəbi** iştirak etmiş və bu layihədən **6000–dən çox şagird** bəhrələnmişdir.

**Təklif**

- ✓ Lakin görülən işlərlə bərabər müəyyənləşdirdiyimiz növbəti istiqamət xüsusi qayğıya ehtiyacı olan müharibə və əmək veteranlarına, şəhid ailələrinin dəqiq uçotunun aparılmasıdır. Bu istiqamətdə hədəflərimizi daha düzgün müəyyənləşdirmək üçün müvafiq şöbə tərəfindən bələdiyyələrin ictimai humanitar sektorları ilə birgə tədbirlər planı hazırlanır.

## 5. <u>Gənclər və İdman sahəsi</u>

Gənclik müstəqilliyimizin qorunub saxlanılmasının, gələcəyimizin qarantıdır. Ötən 3 il ərzində ölkə başçısı cənab İlham Əliyevin dövlət gənclər siyasətinə göstərdiyi diqqət və qayğının təzahürü olaraq Binəqədi rayon ərazisində də gənclərlə iş xüsusi həssaslıqla həyata keçirilmişdir.

2016-cı il ərzində rayon gəncləri üçün ən böyük hədiyyə "Binəqədi Gənclər Evi"-nin açılaraq istifadəyə verilməsi olmuşdur. Gənclər evində inzibati otaqlarla yanaşı, 75 yerlik akt zalı, psixo-sosial xidmət, ünsiyyət klubu, elektron kitabxana, informasiya guşəsi və iş otaqları mövcuddur. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin mənalı həyatı və zəngin siyasi irsi, Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı guşələr yaradılmışdır.

**Gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyə edilməsi** məqsədilə mütəmadi olaraq Heydər Əliyev Mərkəzinə, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Binəqədi rayonunda yerləşən Milli Qvardiyasında fəaliyyət göstərən muzeyə, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyinə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, Dövlət Bayrağı Muzeyinə, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun "Memorial Soyqırımı Muzeyi"nə ekskursiyalar təşkil olunmuşdur.

Rayonun gəncləri vətənin müdafiəsi sahəsində xidmətlərilə bütün gənclərə nümunə olmuşlar. Təsadüfi deyil ki, 2016-cı ilin aprel döyüşləri zamanı rayonun çoxsaylı gəncləri könüllü olaraq orduya yazılmaq üçün müraciət etmiş, bunu nəzərə alaraq rayon gəncləri adından Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanı Prezident cənab İlham Əliyevə müraciət ünvanlanmış, müraciətin mətni Prezidentin rəsmi internet saytında işıqlandırılmışdır.

Rayon İcra Hakimiyyətinin başçısının mütəmadi olaraq gənclərlə, eləcə də tanınmış şəxslər, millət vəkilləri, ictimai-siyasi xadimlərlə rəsmi və qeyri-rəsmi formatda görüşləri keçirilmiş, bu görüşlər zamanı ölkə başçısının yürütdüyü daxili və xarici siyasətin əsas istiqamətləri gənclərin diqqətinə çatdırılmışdır.

**Yaradıcı və istedadlı gənclərə dövlət qayğısının artırılması**, eyni zamanda onların asudə vaxtlarının səmərəli təşkili məqsədilə "Nə? Harada? Nə zaman?", "Xəmsə" Milli İntellektual Oyunları,Kod da Vinçi və BMT modeli Simulyasiya oyunları, parlament debatları, müxtəlif mövzularda təlim və seminarlar, tanınmış ictimai-siyasi xadimlər, yazıçı və şairlərlə görüşlər, ölkənin turizm və idman potensialının inkişaf etdiyi rayonlara, muzey və tarixi abidələrə ekskursiyalar təşkil olunmuşdur.

İstedadlı yeniyetmə və gənclərin iştirakı ilə "Azərbaycan Səninlədir, Sənsiz deyil" Festivalı keçirilmişdir.Məlumat üçün deyim ki, artıq bu ilki festivalın keçirilməsi üçün hazırlıq işləri yekunlaşmaq üzrədir.

**Rayon gənclərinin** kadr potensialı haqqında dolğun məlumatın formalaşdırılması, həmin potensialdan səmərəli istifadə edilməsi məqsədilə təhsil, elm, mədəniyyət, idman sahəsində uğur qazanmış yeniyetmə və gənclər barəsində yaradılmış məlumat bankı daim nəzarətdə saxlanılır. Bu baxımdan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil alan rayon gənclərinin siyahısı tam tərtib olunaraq əlamətdar tarixi günlərdə onların e-mail ünvanlarına təbrik mesajları göndərilmişdir. Bundan başqa tədris ili ərzində yüksək nəticə göstərən gənclər, məktəblərdən daxil olmuş təhsil, elm, mədəniyyət, idman sahəsində uğur qazanmış şagirdlər, eləcə də rayonda keçirilmiş böyük layihələrin – Liderlik Məclisləri, yaradıcılıq festivalları- iştirakçıları da Məlumat Bankına daxil edilmişdir.

**Yeniyetmə və gənclərin** sağlamlığının qorunması, kütləvi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, eləcə də rayon sakinlərinin idmanla məşğulluğunun təmin edilməsi istiqamətində də işlər görülmüş, rayon ərazisində fəaliyyət göstərən idman klub, kompleks, məktəb və cəmiyyətlər tərəfindən il ərzində tədbirlərin, parklarda, təhsil, mədəniyyət müəssisələrində fiziki aktivliyin təbliği, eyni zamanda zərərli vərdişlərin qarşısının alınması sahəsində sosial layihələrin keçirilməsi təmin edilmişdir.

Ümumilikdə dövlət gənclər və idman siyasəti üzrə rayonda keçirilən tədbirlərlə bağlı qeyd etdiyim məlumatları rəqəmlərlə ifadə etsək, deyə bilərəm ki, 2012-2017-ci ilin I rübü ərzində gənclər sahəsi üzrə 592 tədbirdə 83165, idman sahəsi üzrə 210 tədbirdə 37056 nəfər yeniyetmə və gəncin iştirakı təmin olunmuşdur.

**Təkliflər**

- ✓ Gənclərin məşğulluğunun təmin edilməsi
- ✓ Yalnız akademik göstəriciləri yüksək olan, ictimai həyatda aktiv olan gənclərlə deyil, mərkəzdən kənarda yaşayan, ictimai işlərdən kənarda olan gənclərlə xüsusi düşünülmüş ideoloji işin aparılması
- ✓ Cəmiyyətdə mütaliənin vacibliyinin təbliğ edilməsi
- ✓ Rayonda yerləşən ütün idarələrdə gənclərlə iş üzrə nümayəndəliklərin yaradılması
- ✓ Xaricdə təhsil alan gənclərlə ünsiyyətin sıxlaşması
- ✓ Məhkum olunmuş şəxslərin ailələrinə, övladlarına xüsusi qayğı ilə yanaşılması və onlar ilə rayon ağsaqqallarının, ziyalıların mütəmadi görüşlərinin təşkil edilməsi
- ✓ Rayon ərazisində qeydiyyatda olmayan, binaların zirzəmisində, məhəllələrdəki evlərdə, avtomobil qarajlarında, qeyri-qanuni fəaliyyət göstərən tədris mərkəzləri, bağçalar və idman obyektlərinin monitorinqinin aparılması, uşaq və gənclərin bu cür yerlərdə müxtəlif fəaliyyət növləri ilə məşğul olmasının qarşısının alınması üçün əlaqədar qurumlarla birlikdə zəruri addımların atılması.

## 6. <u>Tarixi-əlamətdar günlər. Təqvim tədbirləri</u>

“8 Mart Beynəlxalq Qadınlar günü”, “9 May Qələbə günü” , “28 May Respublika günü”, “1 İyun Uşaqların Müdafiəsi günü”, 15 iyun Qurtuluş günü”, “12 Avqust Beynəlxalq gənclər günü”, “15 Sentyabr Bilik günü”, “1 oktyabr Beynəlxalq Ahıllar günü”, “5 oktyabr Müəllimlər günü”, “18 oktyabr Müstəqillik günü”, “9 Noyabr Bayraq günü” çərçivəsində də rayon ərazisində silsilə tədbirlər həyata keçirilmiş, tədbirlərdə rayon ictimaiyyəti ilə yanaşı sakinlərin də iştirakı təmin edilmişdir.

Novruz və Yeni il bayramı ilə bağlı təşkil edilən tədbirlərdə təkcə rayon sakinləri deyil, ərazimizdə yaşayan milli azlıqların nüamyəndələri də evlərdə ziyarət edilərək, bayramları təbrik olunmuşdur.

Bundan başqa 2016-cı ilin “Multikulturalizm ili”, 2017-ci ilin İslam Həmrəyliyi ili elan edilməsi ilə bağlı silsilə tədbirlər keçirilmişdir.

Təklif

İslam ölkələrinin müxtəlif məktəblərdə təqdimatlarının hazırlanması, yekun festivalın keçirilməsi.

## 7. İnformasiya

Artıq 2 milyona yaxın insan sosial şəbəkələrdən istifadə edir. Tənzimləyici orqanın olmaması,xüsusi alqoritmlər vasitəsilə xəbər çoxluğunun və kütləviliyinin təmin edilməsi, informasiyanın geniş hədəf auditoriyalarına çıxarılması,saxta profillərin yaradılmasının asanlığı internet medianı və sosial şəbəkələri effektiv təbliğat, əks təbliğat, manipulyasiya və dezinformasiya platformasına çevirmişdir. Bəzi "alternativ" informasiya mənbələri dövlət başçısı və onun həyata keçirdiyi siyasət, ayrı-ayrı dövlət qurumları və onların rəhbər vəzifələri şəxsləri, milli və dini münasibətlər, ölkə əhalisinin sosial durumu və s. haqqında əsassız iddialar yayaraq həm xarici anti-Azərbaycan qüvvələr, həm də Ermənistan və erməni lobbisi üçün əlverişli məlumat mənbəyi rolunu oynayırlar.

"Mətbuat cəmiyyətin güzgüsüdür" çağırışı Ulu Öndərin jurnalistika sahəsinə verdiyi yüksək dəyərin ifadəsi idi. Humanist olduğu qədər ədalətsizliyə, əsası olmayan saxta informasiyalara, böhtan və yalanlara qarşı barışmaz olan ümummilli lider Heydər Əliyevin mübarizliyi bu sahədə də özünü büruzə verirdi. AZ RES prez cənab İlham Əliyev də Prezident kimi fəaliyyətə başladığı ilk gündən azad mətbuatın inkişafına yönəlmiş bu siyasətə sadiq olduğunu atdığı addımları ilə təsdiqləmişdir. O cümlədən, Sosial şəbəkələrin artmaqda olan rolunu nəzərə alaraq, ictimai-siyasi proseslərin idarə olunmasında onun üstünlüklərindən faydalanmağı bacarmaq lazımdır. Çalışmaq lazımdır ki, yeni imkanlardan yararlanaraq yerli əhəmiyyətli məsələlərlə yanaşı, ümummilli məqsədlərə də xidmət göstərilsin, müxtəlif kampaniyalara dəstək verilməsi təmin edilsin. Binəqədi rayonunda 2014-cü ilin dekabr ayından yaradılan **Facebook səhifəsi** bu qayəni əldə rəhbər tutaraq fəaliyyətə başlamışdır.

Ümumillikdə **rayonun 1 rəsmi facebook səhifəsi, 7 sahə ərazi dairəsi üzrə nümayəndəliklərin, 5 bələdiyyənin və MKTB –nin və Gənclər və idmanın** facebook səhifələri fəaliyyət göstərir. Sahə ərazi dairəsi üzrə nümayəndəliklər və bələdiyyələr hər gün ərazilərində gördükləri işləri facebook səhifələrində yayımlayırlar. O cümlədən, İctimai-siyasi və humanitar məsələlər şöbəsinə məlumatlar şöbə tərəfindən səhifə adminləri üçün facebookda yaradılmış **"Adminlər çatı"** vasitəsilə göndərilir. Eyni zamanda vatsapda 16-46 tərəfindən yaradılmış **"Operativ məlumatlar"** vasitəsilə də məlumatlar şöbənin nümayəndəsi tərəfindən götürülür. KİV -ə məlumatın ötürülməsi zamanı isə aidiyyəti şöbələr üzrə müvafiq məlumat İctimai-siyasi və humanitar məsələlər şöbəsinə daxil olur və **Press-Reliz** halına salınaraq saytlara ötürülməsi təmin edilir.

O cümlədən, KİV sahəsində əməkdaşlığı təkmiləşdirmək üçün rayonun icra nümayəndələrinin və bələdiyyələrin səhifələrini idarə edən adminlər üçün media sahəsində bir sıra layihələr həyata keçirilmişdir. **“Sosial şəbəkələrdə saytlardan düzgün istifadə qaydaları”, “Saytlarla əməkdaşlığın düzgün aparılması üçün vacib olan amillər”, “Sosial şəbəkələrdə təhlükəsizlik qaydaları”, “sosial medianın əhəmiyyəti”, “TV və İnternet-Tv“, "PR", "Siyasi PR", "Sosial PR", "Sosial Şəbəkələrdə aktivlik necə olmalıdır"** mövzularında media sahəsində çalışan ekspertlərin iştirakı ilə maarifləndirici layihələr, seminarlar və təlimlər həyata keçirilmişdir.

Ölkənin ən vacib və aktual məsələlərindən olan **Seçki təbliğatı** (Prezident, parlament, bələdiyyə və referendum) rayonun rəsmi Facebook səhifəsində təşkil edilmiş və uğurlu layihələr icra olunmuşdur. Təbliğatın sosial şəbəkələr vasitəsilə daha tez çatdırıldığını nəzərə alaraq rayon gənclərindən ibarət **“Operativ baza”** və **“Mobil şəbəkə”** yaradılmışdır.

Ümumillikdə, rayonun rəsmi Facebook səhifəsinin hər ayın sonunda hesabatlığı aparılır və hər ilin sonunda təhlil edilir.

İnformasiya təminatı və təhlili sektoru ictimai-siyasi əhəmiyyət kəsb edən bir sıra məsələlərlə bağlı - "2010-2015-ci illərin məlumatlarını özündə əks etdirən statistik məcmu”, “Əsas qida məhsullarının qiymətləri üzrə aparılmış monitorinqlərin nəticələri”, “Bələdiyyələrin maliyyə təhlili”, “Açılmış iş yerləri”, “Binəqədi rayonu ərazisində baş vermiş hadisələr”, “Elektron mətbuatın təhlili”, “Rayon təhsilinin son göstəriciləri”, “Binəqədi rayonunun bələdiyyələrinin son 4 ildəki fəaliyyəti”, “Əhalinin sosial təminatı sahəsi” və “2016-cı ilin 10 ayı ərzində Elektron Mətbuatda Binəqədi rayonu haqqında dərc edilmiş pozitiv və neqativ xəbərlərlə bağlı” “Binəqədi rayonunda səhiyyə sahəsinin göstəriciləri və əhalinin əsas xəstəliklər sinifləri üzrə Bakı şəhərinin digər rayonları ilə müqayisəli təhlili”, Təhsil sahəsi və Saytda görülən işlər ilə bağlı təhlillər hazırlamışdır.

Vətəndaşların sual, rəy və təkliflərinin öyrənilməsi məqsədilə Rayon İcra Hakimiyyətinin saytında yeni “**Sual-cavab və təkliflər” bölməsi**, **“Təmiz Binəqədi layihəsi” bölməsi** ,“**Vətəndaşların qəbulunun elektron qeydiyyatı” xidməti** ,“**İctimai Şura” bölməsi** ,“**Binəqədi mətbuatda”**,“**Sosial şəbəkə”**, “**Videoqalereya” bölməsi** yaradılmış və rayon ərazisində keçirilən bütün tədbirlərin video materialları mütəmadi olaraq həmin bölməyə yerləşdirilməsi təmin edilmişdir.

Bundan əlavə olaraq qeyd etmək istərdim ki, Rayon İcra Hakimiyyətinin rəsmi internet saytına yerləşdirilən xəbərlərin sayı 2016-ci il ərzində **465** olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə **147** xəbər, 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə **184** xəbər çox təşkil etmişdir. Sayta daxil olan ziyarətçilərin sayının gəldikdə isə 2017-

ci ilin birinci rübü ərzində saytın ziyarətçilərinin sayı **22 061** olmuşdur ki, bu da 2016-cı illin müvafiq dövrü ilə müqayisədə 7 %, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 20 %, 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 57 % çox təşkil etmişdir. Qeyd etmək istərdim ki, 2014-cü ildən 2017-ci ilin birinci rübünədək ümumilikdə **260 327** nəfər saytı ziyarət etmişdir. Görülən işlərin daha da təkmilləşdirilməsi üçün aşağıdakı istiqamətdə işlər gedir.

- ✓ YAP Ərazi partiya təşkilatlarından siyasi biliyi, dünyagörüşü olan gənclərin sosial şəbəkələrdə təşkil etdiyimiz Operativ qrupda toplanması,
- ✓ Məhəllə komitələri ilə birlikdə yerlərdə səhifəmizin reklam edilməsi
- ✓ Petisiyalar zamanı və müxtəlif mövzular üzrə statuslara dəstək vermək üçün qrupların yaradılması
- ✓ Mərkəzi qəzetlərə abunə yazılışı istiqamətində qurulan işlərin daim nəzarətdə saxlanılması.

## 8. Din-Dini qurumlarla işin qurulması, dini radikalizmə və terrorizmə qarşı mübarizə sahəsində maarifləndirici işlərin görülməsi və milli – mənəvi dəyərlərimizin təbliği

Cənab Prezidentin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir.

Bildiyiniz kimi, dini təhlükəsizliyin təminatı milli təhlükəsizliyin təminatıdır. Bu mənada dini maarifləndirmənin müstəsna əhəmiyyəti var. Maarifləndirmə bütün neqativ hallara qarşı mübarizədə ən effektiv vasitədir.

Binəqədi rayonunda da sakinlərlə, xüsusilə gənclərlə *milli-mənəvi dəyərlərin təbliğ edilməsi və tolerantlıq ənənələrinin qorunması istiqamətində* maarifləndirici görüşlər müntəzəm olaraq keçirilir.

*Son dövr ərzində Binəqədi rayonunda* "Dövlət-din münasibətlərinin tənzimlənməsində dini icmaların rolu", "Zərərli vərdişlərə qarşı mübarizədə milli-mənəvi dəyərlərin rolu", "Dini radikallığa və ekstremizmə qarşı effektiv mübarizə yolları", "Əsl İslam və İslamafobiya", "Xurafat və dini radikalizmlə mübarizədə qadınların rolu", "Radikalizm, separatizm və terrorizmin fəsadları", "Milli- mənəvi dəyərlərimiz: tarixilik, varislik, müasirlik", "2017- İslam Həmrəyliyi İli" çərçivəsində "Həmrəylik və dəyərlərimiz" adlı 50-dən çox görüşlər, tədbirlər, elmi-praktik konfranslar keçirilmiş, "İslam ölkələrinin həmrəylik festivalı"nda isə 15 islam ölkəsinin diplomatları və 2000-dən çox rayon sakini iştirak etmişdir.Adını sadaladığımız görüşlərdən isə **4000-dən çox gənc** və **3000-ə yaxın orta təhsil müəssisələrində**

**çalışan müəllim heyəti** bəhrələnmişdir. “Radikalizm və ekstremizmə, terrorizm və separatizmə qarşı mübarizədə gənclərin rolu” mövzusunda görüşlər ayda ən azı 2 dəfə müxtəlif məktəblərdə həyata keçirilir.

Binəqədi rayon ərazisindəki dini qurumların fəaliyyəti ilə bağlı davamlı müşahidələr aparılmaqda, onların təbliğ etdiyi dini mövzular diqqətlə izlənilməkdədir. Mütəmadi olaraq dini icma sədrləri və axundlarla görüşlər keçirilir, dövlətçilik üçün təhlükəli sayılan ideoloji istiqamətlər barədə onlarla profilaktik söhbətlər aparılır. Belə söhbətlər zamanı dini fəaliyyət sahəsində mövcud olan sabitliyin ölkənin ümumi sabitliyinin ayrılmaz tərkib hissəsi olması din xadimlərinin nəzərinə çatdırılır.

Söhbətlər zamanı din xadimlərinin siyasətdən uzaq sağlam dini təbliğat aparmasının əhəmiyyəti vurğulanır və əsasən din xadimləri və icma rəhbərləri ilə görüşlər yerlərdə- icmaların hüquqi ünvanlarında, o cümlədən məscidlərdə keçirilir.

Təklif

- ✓ Bilik Fondu ilə əməkdaşlıq, peşəkar lektorların dəvət olunması
- ✓ Milli azlıqların nümayəndələri ilə mütəmadi görüşlərin keçirilməsi
- ✓ Dini icmaların dövlət qeydiyyatına alınması üçün işlərin intensivləşdirilməsi
- ✓ Sosial şəbəkələrdə radikal dini təbliğatla məşğul olan səhifələrin və satış məntəqələrinin müvafiq qurumlarla birlikdə monitorinqinin aparılması
- ✓ İl ərzində bir neçə dəfə Rayon Ağsaqqallar Şurası, Ziyalılar Cəmiyyəti, İctimai Şura ilə açıq görüşlərin keçirilməsi
- ✓ Bu istiqamətdə həyata keçirilən tədbirlərdə hüquq mühafizə orqanlari ilə koordinasiyasının gücləndirilməsi

**9.** Təhsil, mədəniyyət.

**Təhsil və məktəbəqədər təhsil sahəsində görülən işlər**

ötən (10 il ərzində) illərdə Binəqədi rayonunda **25 məktəbdə** əsaslı təmir aparılmışdır. Eyni zamanda **18 məktəbdə** əlavə korpuslar tikilib istifadəyə verilmişdir. Bu gündə işlər davam etdirilir, 306 nömrəli tam orta məktəb sökülərək yenidən inşa edilir.

Son dövr ərzində Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının müvafiq sərəncamları ilə rayonun ictimai-siyasi həyatında fəal iştirakına, gənc nəslin təlim–tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiklərinə görə 50-dən çox təhsil işçisi “Binəqədi Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı” ilə təltif edilmişdir.

Son 3 il ərzində bu konfranslarda ali məktəblərə yüksək balla qəbul olan 247 tələbə adını qazanmış rayon məktəblərinin məzunları fəxri fərmanlarla və qiymətli hədiyyələrlə təltif edilmişlər.
Qeyd etmək lazımdır ki, rayonun 3666 müəlliminin 85 % YAP üzvləridir. Bu, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına Azərbaycan cəmiyyətində olan dərin inamdan və ehtiramdan irəli gəlir.Rayon ərazisində yerləşən **34 məktəbəqədər təhsil müəssisəsi**ndə ötən dövr ərzində “Ana dilim varlığım mənim”, “Sağlam gənclik etibarlı gələcəkdir”, "Qüsursuz Gələcək", “Sülh dünyanın səsidir”, “Ekologiyamıza balacalarımızla birgə baxış”, “Onlar ilə öyrənək və öyrədək”, “Nağıllar aləminə səyahət”, “Təbiəti sevək, qoruyaq!”, “Gəlin birgə həmrəy olaq”! və “Məktəbəqədər təhsilin genişləndiriləməsi adlı ideoloji layihələr, tədbirlər və seminarlar keçirilmiş, O cümlədən, məktəbəqədər təhsil müəssisələri ilə birgə edilən layihələrdə vaildeynlərin də iştirakı təmin edilmişdir.

Rayon ərazisində yerləşən tarixi-memarlıq və mədəniyyət abidələrinin gənclərimizə tanıdılması məqsədilə RİH-də təcrübə keçən ASAN könüllülərimiz və rayon gəncləri üçün Binəqədi rayonu ərazisinə ekskursiyalar təşkil edilmişdir.

Ekskursiya zamanı gənclər Binəqədi qəsəbəsində yerləşən "Binəqədi IV dövr fauna və flora qəbirstanlığı", Kənd təsərrüfatı muzeyi, 1908-ci ildə inşa edilmiş "Məscid və minarə", Biləcəri qəsəbəsində yerləşən Güllə Yağışı abidəsi, Milli Qəhrəmanlar Parkı və Qafqazın ən böyük məscid kompleksi “Heydər” məscidi ilə tanış olmuşlar və burada hər bir tarixi məkan haqqında geniş məlumat verilmişdir. Eyni zamanda, bir sıra şair, yazıçı, aktyorlarla (xalq şairi Nəriman Həsənzadə, xalq yazıçısı Çingiz Abdullayev, xalq artisti Rasim Balayev) gənclərin görüşləri təşkil edilmişdir.

**8. Səhiyyə sahəsi**

Səhiyyə sahəsində dövlət proqramları Binəqədi rayonunda da uğurla yerinə yetirilir. Belə ki, Binəqədi rayonunda 10 minə yaxın şəkərli diabet xəstəsi (respublikada 200 mindən çox şəkərli diabet xəstəsi mövcuddur) ömürlük olaraq, daim dövlət hesabına bütün lazımi dərmanları alır. Əgər vaxtilə diabetli uşaqlara adi şpris-qələm verilməsi problem idisə, indi onlara dərman insulin pompası vasitəsilə verilir. Bu isə körpələri gün ərzində bir neçə dəfə insulin iynəsi vurmaqdan azad edir.

Səhiyyə sistemində islahatların davam etdirilməsi, ölkə əhalisinin keyfiyyətli və əlverişli şərtlərlə tibbi xidmətlə təmin olunması “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında xüsusi yer tutur. Konsepsiyada Səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən

qurulması, onların ən müasir tibb avadanlıqları ilə təchiz edilməsi, səhiyyə islahatlarının planlı şəkildə davam etdirilməsi nəzərdə tutulub.

Ölkə başçısı cənab İlham Əliyevin demək olar ki, hər bir xəstəxananın, diaqnostika mərkəzinin açılışında qeyd etdiyi kimi hər bir vətəndaş ildə bir dəfə müayinədən keçməlidir. İndi buna şərait də imkan verir.

Əhalinin tibbi müayinədən keçirilməsi ilə əlaqədar Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırıqlarından irəli gələn vəzifələrin icrası məqsədilə prosesin mütəşəkkilliyini təmin etmək üçün Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən "Binəqədi rayonunda əhalinin tibbi müayinədən keçirilməsinin təşkil edilməsi haqqında" hər il sərəncam imzalanır. Sərəncama əsasən Binəqədi rayonunda yerləşən idarə, müəssisə və təşkilatların kollektivlərinin və yerli əhalinin tibbi müayinədən keçməsi qrafiki müəyyənləşdirilir, Binəqədi Rayon İcra Hakimiyyətinin nəzdində "Binəqədi rayonunda əhalinin tibbi müayinədən keçirilməsinin təşkil edilməsi" üzrə Komissiya yaradılır.

2017-ci ilin fevral ayının 15-dən may ayının 15-dək əhalinin tibbi müayinəsi barədə dövlət başçısının tapşırıqlarının icrasını daha səmərəli və effektiv həyata keçirmək üçün ilk öncə rayon ərazisindəki səhiyyə müəssisələrinin potensialı qiymətləndirilmiş və bu məqsədlə 6 şəhər poliklinikası, bir sağlamlıq mərkəzi və bir xəstəxananın poliklinika şöbəsi, ümumilikdə 8 tibb müəssisəsi prosesə cəlb edilmişdir. Tədbir çərçivəsində 18 yaşdan yuxarı rayon sakinləri tibbi müayinələrə cəlb olunmuş və prosesdə iştirak edən tibb müəssisələrindən gedişat barədə məlumatların gündəlik olaraq toplanması təmin edilmişdir.

Eyni zamanda rayon səhifəsi, saytlar və televiziya vasitəsilə əhalinin məlumatlandırılması həyata keçirilmişdir.

Bundan başqa, Mobil Diş klinikasının təşəbbüsü, Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi və təşkilatçılığı ilə rayonun müxtəlif qəsəbələrində 8-17 yaş arası uşaqlar üçün pulsuz diş müayinələri təşkil edilmişdir. Müayinələr zamanı klinikanın həkimləri **300-dən** çox kimsəsiz uşaqlara, aztəminatlı ailələrə, qaçqın və məcburi köçkünlərə xidmət göstərmişdirlər.

Məktəb yaşlı uşaqların onurğa problemləri xüsusilə cəmiyyətimizin ictimai narahatçılıq doğuran məsələlərindən biri olduğu üçün bu istiqamətdə maarifləndirmə, təbliğat-təşviqat işlərin aparılması vacib sayılır. Uşaqlarda rast gəlinən onurğa əyrilikləri, skoliozlar, kifozlar cəmiyyətimizi daim çox narahat edir. Bununla əlaqədar olaraq "Vertebra" onurğa tibb mərkəzi ilə birlikdə rayonun bütün ümumtəhsil məktəbləri əhatə olunmaqla maarifləndirmə tədbirləri aparılmışdır. Keçirilən tədbirlərdə məktəbin müəllimləri, uşaqlar və onların valideynləri iştirak etmişdirlər. Bununla yanaşı onurğa problemləri olan uşaqlar tibb mərkəzində pulsuz müayinə edilmişdir.

Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası Goradil bağlar massivində yerləşən 2 saylı Evtikmə Kombinatının istirahət zonasında və Muğan sanatoriyasında məskunlaşmış şəhid ailələri və məcburi köçkünlərlə oftalmoloji müayinələr aparmışdır. Məcburi köçkünlər tibbi müayinə prosesindən razılığını bildirmiş və tibb müəssisələrinə getmədən məskunlaşdıqları ərazidə müayinədən keçmələrini təmin etdiyinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

İslam Həmrəyliyi Oyunları günlərində baş tutan humanitar aksiya çərçivəsində rayonda məskunlaşmış məcburi köçkün, aztəminatlı, çoxuşaqlı ailələrdən və valideyn himayəsindən məhrum olan ümumilikdə 90 nəfər uşaq sünnət olunmuşdur. Həmin uşaqlara maddi yardım göstərilmiş və tibbi paketlər təqdim olunmuşdur. Uşaqların valideynləri və yaxınları gerçəkləşdirilən xeyriyyə aksiyasına görə dövlət başçısına öz minnətdarlıqlarını bildirmişdirlər. Yeri gəlmişkən 6 saylı şəhər xəstəxanasının bütün kollektivinə və əməyi olan bütün səhiyyə işçilərinə bu nəcib və xeyirxah işin təşkil edilməsinə görə təşəkkür edirik.

Ümumilikdə, Binəqədi rayonunda son 3 il ərzində **1484 tədbir** həyata keçirilmişdir. Belə ki, Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin geniş təbliği, onun ideyalarının və irsinin öyrənilməsi və cənab Prezidentin yürütdüyü siyasətin və gördüyü işlərin təbliği məqsədilə keçirilən tədbirlər - **302,** Tarixi və əlamətdar günlərin qeyd olunması ilə əlaqədar - **348,** Gənclərin intellektual və yaradıcılıq potensialının aşkar edilməsi və asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində - **202,** dini radikalizmə və terrorizmə qarşı mübarizə sahəsində maarifləndirici işlərin görülməsi və milli – mənəvi dəyərlərimizin təbliği istiqamətində keçirilən tədbirlər – 79, İdman sahəsi üzrə - **50,** Sosial layihələrlə əlaqədar – **199,** Vətənpərvərlik mövzusunda tədbirlər - **163,** Müxtəlif sahələr üzrə - **141 tədbir** keçirilmişdir.

Ideoloji işin təşkilinin ən mühüm istiqamətlərindən biri də *Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın* və qəyyumluq, himayəçilik komissiyaların gündəlik fəaliyyətinə aiddir. Vətəndaş müraciətləri ilə işin təşkili ictimai-siyasi mühitə təsir göstərən amillərdən biridir. Odur ki, daxil olan müraciətlər ciddi öyrənilir, onlara əsaslandırılmış cavablar verilir. Çünki adı çəkilən komissiyalar gün ərzində müxtəlif sosial təbəqələrdən olan sakinlərlərlə birbaşa ünsiyyət qurur , onların mənəvi, ailədaxili, psixoloji problemlərini aradan qaldırmaq üçün səylə çalışır. Komissiyaya hesabat dövründə ümumilikdə 2197 sənəd daxil olmuşdur ki, bunlardan 21% -i ərizələr, 20%-i məhkəmələrdən uşaqların tərbiyəsi ilə bağlı yaranan mübahisələrlə əlaqədar rəy verilməsi üçün daxil olmuş mülki işlər, 5%-i yetkinlik yaşına çatmayanların müxtəlif hüquq pozuntuları törətmələri, 54%-i digər

sənədlərdir. Komissiya tərəfindən 1449 vətəndaş birbaşa qəbul edilərək müraciətlərində qaldırdıqları məsələlərlə əlaqədar müvafiq izahatlar verilmişdir ki, bunlardan 75%-i qəyyumluq və himayə məsələləri, 25%-i isə yetkinlik yaşına çatmayanların hüquq pozuntusu törətmələri ilə əlaqədardır.

*Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın fəaliyyəti ilə bağlı :*

Yetkinlik yaşına çatmayanların müxtəlif hüquq pozuntuları törətmələri barədə hüquq-mühafizə orqanlarından və orta təhsil müəssisələrindən 116 məktub daxil olmuşdur. Həmin məktublar əsasında təhsildən yayınan 101, digər hüquq pozuntuları törədən 122, cəmi 223 yetkinlik yaşına çatmayan, habelə onların valideynləri barəsində "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə" nin 9-cu və 10-cu maddələrinə əsasən intizam təsiri tədbiri qismində xəbərdarlıq edilmə, habelə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 189-cu maddəsinə əsasən valideynlərin üzürlü səbəblər olmadan uşaqların təlim-tərbiyəsi ilə lazımınca məşğul olmamaları ilə əlaqədar cərimə edilmə inzibati tənbeh növündə müvafiq qərarlar qəbul edilmişdir. Komissiya tərəfindən qəbul edilən qərarlar və aparılan profilaktik söhbətlər nəticəsində yetkinlik yaşına çatmayanların təhsilə davamiyyətləri bərpa edilmişdir. Bununla yanaşı qanunla ziddiyətdə olan yetkinlik yaşına çatmayanların komissiyada işlərinə baxılarkən barələrində “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında Azərbaycan Respublikası Qanununun” 6-cı və 17.2.1-ci maddələrinə əsasən fərdi profilaktik işin aparılaraq uçota götürülmələri üçün komissiyanın müvafiq qərarları daxili işlər orqanlarına göndərilmişdir. Fürsətdən istifadə edərək yetkinlik yaşına çatmayanlar arasında hüquqpozmalar zamanı və digər ictimai əhəmiyyət daşıyan müraciətlərimizə dərhal adekvat tədbirlər həyata keçirdiyinə görə hüquq mühafizə orqanlarına təşəkkür edirik.

Komissiya cari söhbətlər, profilaktik addımlarlarla yanaşı cəmiyyəti narahat edən ideoloji istiqamətlər üzrə silsilə tədbirlər həyata keçirir. yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın sayının azalması məqsədilə “Şagird-cəmiyyət münasibətləri” mövzusunda Binəqədi rayonunun orta məktəb psixololoqları üçün 3 günlük təlimlər ,“Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası” mövzusunda maarifləndirmə tədbirləri bu qəbildəndir.

Polis orqanından alınan məlumatlara əsasən 2014-cü il ərzində 25 yetkinlik yaşına çatmayan tərəfindən 53 fakt üzrə, 2015-ci il ərzində 16 yetkinlik yaşına çatmayan tərəfindən 29 fakt üzrə, 2016-cı il ərzində 10 yetkinlik yaşına çatmayan tərəfindən 19 fakt üzrə cinayət hadisəsi törədilmişdir.Rəqəmlərin mənfi dinamikası bizi sevindirir və bu uğurlu statistika hüquq mühafizə orqanları ilə komissiyanın birbaşa qarşılıqlı əməkdaşlığının nəticəsidir.

*Qəyyumluq və himayəçilik komissiyasının fəaliyyəti ilə bağlı :*

Komissiya tərəfindən ümumilikdə 12 nəfərin (2014-cü il 6 nəfər, 2015-ci il 1 nəfər, 2016-cı il 4 nəfər, 2017-ci ilin I rübü 1 nəfər) nikah yaşı üzürlü səbəblər müəyyən edildiyindən Azərbaycan Respublikası "Ailə Məcəlləsi"nin 10.2-ci maddəsinin tələblərinə uyğun olaraq 1 ilədək müddətə azaldılmışdır.

Hər il komissiya və Binəqədi rayon Gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə orta məktəblərdə erkən nikahla mübarizə aparılması məqsədilə tədbirlər keçirilir.

Məhkəmələrdən uşaqların tərbiyəsi ilə bağlı yaranan mübahisələrlə əlaqədar rəy verilməsi üçün daxil olmuş mülki işlər üzrə aparılan təhlillər onu göstərir ki, ümumilikdə komissiyaya 2014-cü ildən hazırki dövrə qədər 429 mülki iş daxil olmuşdur (2014-cü il-127, 2015-ci il-128, 2016-cı il-144, 2017- I rüb 30). Həmin işlərdən 168–i nikahın pozulması və uşaq tələbi ilə bağlı olmuşdur. 2014-2016-cı illər üzrə statistik göstəricilər məhkəmələrdən daxil olan nikahın pozulması və uşaq tələbi barədə işlərin sayının ilbəil artdığını göstərir. Belə ki, 2014-cü il-38, 2015-ci il-47, 2016-cı il-65 mülki iş komissiyaya daxil olmuşdur.

Komissiyada baxılan mülki işlər təhlil olunarkən müəyyən edildi ki, ailələrin dağılmasının səbəbləri əsasən gənclərin ailə həyatına psixoloji cəhətdən hazır olmamaları (35%), məcburi evlilik (22%), ailədə xəyanət (20%), ailənin sosial-iqtisadi vəziyyəti (10%), məişət zorakılığı (8%), erkən nikahlar (5%).

*Qeyri-hökümət təşkilatları ilə əməkdaşlıq:*

Binəqədi rayonunun inzibati ərazisində fəaliyyət göstərən Azərbaycan Uşaqları İctimai Birliyinin nəzdində 24 saat ərzində Uşaq sığınacağı-Reinteqrasiya Mərkəzi ilə sıx əməkdaşlıq edilir. Mərkəzdə insan alverinin, məişət zorakılığının qurbanı olan və ya potensial qurbanı olan baxımsız uşaqların effektiv reabilitasiyası və sosial reinteqrasiyası həyata keçirilir. Mərkəzdə küçədə yaşayan, kimsəsiz, baxımsız və s. bu qəbildən olan uşaqlara sosial, psixoloji hüquqi yardımın göstərilməsi, onların sığınacaqla, təhsillə, paltarla, qida ilə, asudə vaxtının təşkili ilə bağlı və s. zəruri xidmət və mallarla təmin edilmələri həyata keçirilir.

Qeyd olunanlarla yanaşı uşaq hüquqlarının müdafiəsinin və qanuni maraqlarının daha səmərəli həyata keçirilməsi məqsədilə komissiya aşağıdakı təklifləri gələcəkdə işin daha da təkmilləşdirilməsi məqsədilə təklif edir:

1. Binəqədi rayonunun inzibati ərazisində yerləşən insan alveri və məişət zorakılığı qurbanları üçün nəzərdə tutulmuş sığınacaqlara səfərlər edilməsi, orada yaşayanlar barədə məlumatların toplanması, hüquqi, tibbi, psixoloji, sosial və digər yardımların təmin edilməsi istiqamətində tədbirlərin görülməsi.

2. Orta təhsil müəssisələrində qeyri-hökümət təşkilatları ilə birgə uşaq hüquqlarının təbliği mövzusunda tədbirlərin intensiz həyata keçirilməsi.

3. Rayon Polis İdarəsindən yetkinlik yaşına çatmayanlar tərəfindən cinayətlərin törədilməsi barədə müvafiq məlumatların rüblük alınması və təhlil edilib komissiyanın müzakirəsinə çıxarılması.

4. Erkən nikahla mübarizənin daha səmərəli aparılması məqsədilə bu cür tədbirlərin rayonun daha çox zərurət olan, yəni erkən nikah hallarının daha çox rast gəlindiyi ərazilərində təşkil edilməsi.

5. Rayon ərazisində nikahın pozulması barədə statistik məlumatlar əldə edilməsi, nikahın pozulmasının səbəblərinin araşdırılması, müvafiq təkliflər hazırlanaraq aidiyyəti qurumlara göndərilməsi

6. Şagirdlərin təhsildən yayınmasının qarşısının alınması sahəsində Komissiyanın Əsasnaməsinə uyğun olaraq aidiyyəti şöbə ilə birlikdə tədbirlərin intensiv həyata keçirilməsi.

7. Çətin tərbiyə olunan uşaqların özləri ilə bərabər, həmçinin onların valideynləri ilə işin aparılması.

8. Bələdiyyələrdə yaradılan ailə akademiyalarının fəaliyyətinin intensivləşməsi və Azərbaycan ailəsi modelinin gənclər arasında təbliğ edilməsi. Və təbliğat tədbirlərini həyata keçirərkən şəxsi nümunəsi olan ziyalılardan istifadə edilməsi.

Hörmətli cənab başçı, hörmətli toplantı iştirakçıları!
Dövlətçilik tarixini öyrənən alim və tədqiqatçıların ortaq qənaəti bundan ibarətdir ki, hər bir dövlətin ərazi, iqtisadi, milli əsasları olduğu kimi, ideoloji əsasları da olmalıdır. Bu mənada, əgər dövlətçilik və milli maraqlardan danışırıqsa, burada mütləq milli ideologiya olmalıdır. Çünki hər şeydən öncə, milli ideologiya vətəndaş həmrəyliyini, ümummilli həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən başlıca mənəvi substratdır. Eyni zamanda, ideologiya milli-mənəvi

identikliyi də təmin edən vasitədir. Hesab edirik ki, digər postsovet respublikaları kimi Azərbaycan da keçid mərhələsini yekunlaşdıraraq öz milli ideologiyasını yaratdı. Yaranmış milli ideologiya Azərbaycanın milli dövlət maraqlarını təmin etməklə bərabər, həm də milli həmrəyliyi təmin edərək ictimai ahəngdarlığı qoruyan mexanizmə çevrildi. Beləliklə, əgər ideologiyanın cəmiyyətdə rolunu xarakterizə etməyə çalışsaq, deyə bilərik ki, ideologiya səfərbəredici, maarifləndirici, tərbiyəedici, inteqrativ, adaptiv, kommunikativ səciyyə daşıyan əsas mənəvi vasitədir. Bəzi hallarda maraqlı qüvvələr xüsusilə gənclərimizə demokratiya, hüquqi dövlət, azadlıq kimi anlayışları milli ideologiya kimi təqdim etməyə çalışırlar. Bu, zaman-zaman imperialist mərkəzlərin ayrı-ayrı cəmiyyətləri istismar etmək məqsədilə ortaya atdıqları düşüncə ünsürüdür. Demokratiya heç vaxt milli ideologiya ola bilməz. Demokratiya milli məqsəd ola bilər, milli dəyər ola bilər. Ona görə də, imperialist mərkəzlər inkişafda olan dövlətlərə məhz bu dəyərləri ideologiya kimi təqdim etməklə, bir növ həmin dövlətləri ideologiyasızlaşdırlar. Məqsəd isə aydındır, onlar da bilirlər ki, ideologiyasız dövlət ola bilməz. Müasir imperializmin əsas məqsədlərindən biri də ekspansiya obyekti kimi gördüyü ölkələri lidersizləşdirmək, ideologiyasızlaşdırmaq və nəhayət, dövlətsizləşdirməkdir.

Ona görə də, məhz bu gün Azərbaycan Respublikasının Prezidentinin də qeyd etdiyi kimi, bizim üç düşmənimizdən biri olan müstəmləkəçi ölkələr Azərbaycanda milli həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən milli ideologiyamıza hücumlar təşkil etmək cəhdləri göstərir. Odur ki, fürsətdən istifadə edərək, ideologiyamızı, milli mənafelərimizi və gələcəyimiz olan yeniyetmələri qorumaq üçün mühüm siyasi kampaniyalar zamanı bizə dəstək olan təşkilatlara təşəkkürümüzü bildiririk. Elə nitqimi də səhnənin əsas hissəsində əks olunan ümummilli liderin bütün dövrlər üçün aktual olan aşağıdakı sözləri ilə yekunlaşdırmaq istəyirəm – “hamımızın bir ideologiyası var-Azərbaycanın müstəqilliyi və müstəqilliyin əbədiliyi” Biz də-hər bir Azərbaycan vətəndaşı, xüsusilə ideoloji yükün ağırlığını çiyinlərində daşıyan ziyalılarımız bütün qüvvələrimizi səfərbər edərək bu məqsədləri qorumaq üçün səylə çalışmalı, ölkəmiz üçün milli maraq kəsb edən ideoloji məsələlərdə həmrəy olmalıyıq!

Diqqətinizə görə təşəkkür edirəm.

## “Sosial-iqtisadi islahatların nəticələrinin və sahibkarlığın təşviqi”

Sosial-iqtisadi inkişafın təhlili və
proqnozlaşdırılması şöbəsinin müdiri
Yəhya Əliyev

**Hörmətli Cənab başçı !**
**Hörmətli müşavirə iştirakçıları**

Bildiyimiz kimi, qlobal iqtisadi böhran kontekstində ölkəmiz üçün yaranan qlobal iqtisadi çağırışlar, dünya bazarında neftin qiymətinin aşağı düşməsi və dünya maliyyə bazarlarında baş verən proseslər ölkəmizdə iqtisadi islahat tədbirlərinin daha da sürətləndirilməsini və əhatə dairəsinin genişləndirilməsini zərurətə çevirmişdir.

Ötən ildən etibarən cənab Prezidentin təşəbbüsü ilə həyata keçirilən genişmiqyaslı tədbirlər iqtisadiyyatın qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafına təkan vermişdir. Prezident Administrasiyasının, mərkəzi icra hakimiyyəti orqanlarının, xüsusən də yerli icra hakimiyyəti orqanlarının cənab Prezidentin bu təşəbbüsünə qoşularaq həyata keçirilən tədbirlərdə çox fəal iştirak etməsi ölkədə məhsul istehsalının yüksəlməsinə, iqtisadiyyatda resessiyanın dayandırılmasına nail olmağa imkan vermiş, makro, monetar və fiskal siyasətin koordinasiyasını təmin edəcək mexanizm formalaşdırılmış, qısa müddət ərzində makroiqtisadi və maliyyə dayanıqlılığı təmin olunmuş, manatın sabitliyi bərpa edilmişdir.

Bu istiqamətdə sahibkarlığın inkişaf etdirilməsi sahəsində bir sıra mühüm əhəmiyyətli işlər görülmüşdür. Təsadüfi deyil ki, cənab prezidentin müvafiq sərəncamı ilə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı təyin olunduqdan sonra rayon ictimaiyyəti ilə  kecirdiyiniz ilk görüşlərdən biri də məhz 17 may 2012-ci il tarixdə rayonda fəaliyyət göstərən sahibkarlar təbəqəsi ilə olmuşdur. Məhz sizin təşəbbüsünüz və tapşırıqlarınız əsasında “Binəqədi Sahibkarları” İctimai Birliyi  yaradılmışdır. Ötən dövr ərzində sahibkarlığın inkişaf etdirilməsi, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluğun artırılması, mövcüd sahibkarlıq obyektlərinin istehsalının genişləndirilməsi, sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi və onların qarşılaşdıqları problemlər daim diqqət mərkəzində saxlanılmışdır. Rayonun sənaye potensialını nümaiş etdirmək, yeni sənaye müəssisələrinin açılmasına təşviq etmək məqsədilə 2014-cü il **“SƏNAYE İLİ”** çərcivəsində Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə “Binəqədi Sahibkarları” İctimai

Birliyi tərəfindən rayon ərazisində fəaliyyət göstərən müəssisələrdə istehsal olunan müxtəlif təyinatlı məhsulların sərgisi keçirilmişdir.

Qeyd etmək lazımdır ki, bu gün Cənab Prezident tərəfindən ölkədə aparılan iqtisadi islahatlar fonunda “Binəqədi Sahibkarları” İctimai Birliyi öz fəaliyyətini daha intensivləşdirməlidir. Bu baxımnan birlik sahibkarlıq subyektləri arasında əlaqələrin qurulması, rayonunun sosial-iqtisadi potensialının reallaşdırılması, müəssisələrin fəaliyyəti, sahibkarlığın inkişafı istiqamətində öz fəaliyyətini daha da təkmilləşdirməli və növbəti dövrlər üçün yeni iş planı müəyyənləşdirməlidir.

**Hörmətli müşavirə iştirakçıları**

Vətəndaşların məmnunluğunun artırılması, sağlamlığının qorunmasının təmin edilməsi üçün vacib şərtlərdən biri də sanitar-epidemioloji vəziyyətinin sağlamlaşdırılmasıdır. Bu səbəbdən rayon ərazisində fəaliyyət göstərən müəssisələrdə sanitar-gigiyenik normalara əməl edilməsi, uniformalardan istifadə olunması diqqət mərkəzində saxlanılmalı və mütəamdi olaraq monitorinqlər keçirilməlidir. Xsusən də qida sənayesi sahəsində fəaliyyət göstərən müəssisələr və ictimai iaişə obyektləri bu məsələlərə xsusi diqqət yetirməlidir. 20 oktyabr 2015-ci il tarixdə sahibkarlıq sahəsində aparılan yoxlamalrın 2 il müddətində dayandırılması haqqında Azərbaycan Respubliksının Qanunu imzalanmışdır. Bu qanun əslində sahibkarlığın inkişafının stimullaşdırılması məqsədilə qərara alınmışdır və sahibkarlar bundan müsbət faydalanmalı öz fəaliyyətlərini mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq qurmalı və qanun pozuntusuna yol verməməlidirlər. Əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində də rayon məşğulluq mərkəzi ilə kordinasiyalı işlər qurulmuş və bu istiqamətdə işlər davam etdirilir. Bu sahədə də müəyyən çatışmamazlıqlar mövcüddur Belə ki. bəzi hallarda mövcud vakant iş yerlərinin vaxtlı-vaxtında təqdim olunmasında müəyyən çətinliklər yaranır bu isə öz növbəsində işaxtaran vətəndaşların işlə təmin olunmasına mənfi təsir göstərir. Burda da rayonun idarə, müəssisə rəhbərlərinin bu işə daha məsuliyyətlə yanaşmaları tövsiyyə edilir.

**Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır.** Azərbaycanda da bu sahənin inkişafına ciddi diqqət göstərilməkdədir. Cənab prezidentin 6 aprel 2010-cu il tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" isə ölkəmizdə bu sahənin inkişafı üçün daha ciddi əsas yaradıb. Dövlətimizin başçısı ölkəmizdə turizmin inkişafını vacib istiqamətlərdən biri kimi şəxsən diqqətdə saxlayır. Buna ən bariz nümunə 2011-ci ilin Azərbaycanda "Turizm ili" elan olunmasıdır. Azərbaycanın turizm sahəsi böyük perspektivlərə malikdir. Binəqədi Rayonda turizmin

əksər növlərinin ( müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman və s.) növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Son illərdə əldə olunmuş sürətli sosial-iqtisadi tərəqqi bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açıb. Bu baxımdan rayonda fəaliyyət göstərən turizm obyektləri ilə sıx koordinasiyalı işin qurulması vacib şərtlərdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərman, sərəncam və çıxışlarında verdiyi tapşırıqların icrasının təmin edilməsi və yerlərdə təbliğ edilməsi məqsədi ilə Rayon İcra Hakimiyyəti başçısının 12 fevral 2016-cı il tarixli, Sərəncamı imzalanmışdır və yerlərdə maarifləndirmə işlərinin aparılması üçün dövrü olaraq qrafik təsdiq olunmuş və qrafikə uyğun olaraq idarə, müəssisə və təşkilatlarda, həmçinin sahibkarlıq subyektlərində rayon ictimaiyyəti ilə geniş maarifləndirmə işləri aparılır.

2014-cü ilin ikinci yarısından etibarən neftin qiymətində baş verən kəskin azalma, 2015-ci ilin fevral və dekabr aylarında milli valyutanın məzənnəsində baş verən ucuzlaşma, ölkə iqtisadiyyatına – real sektora, bank sektoruna və bir çox digər sahələrə öz mənfi təsirini göstərmişdir. Mövcüd vəziyyətdən sui istifadə edərək bir çox iri və orta ölçülü ticarət obyektləri süni surətdə qiymətlərin artırılmasına çalışmışlar. Bu məqsədlə Prezident Administrasiyasının tapşırıq və tövsiyyələrinə uyğun olaraq rayon ərazisində fəaliyyət göstərən ticarət obyektlərində "İstehlak mallarının süni qiymət artımına qarşı nəzarət üzrə Komissiya"nın təsdiq etdiyi işçi qrupu tərəfindən mütəmadi monitorinqlər keçirilniş, qiymət artımı müşahidə edilən ticarət obyektlərinə qiymətləri mövcud bazar qiymətlərinə uyğun olaraq tənzimləmələri tövsiyə edilmişdir.

**Hörmətli müşavirə iştirakçıları!**

Bildiyiniz kimi Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin " 2016-cı il 21 sentyabr tarixli Sərəncamına əsasən yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmaq, beynalxalq bazara inteqrasiya prosesini sürətləndirmək məqsədi ilə **azexport.az** portalı istifadəyə verilmişdir. Ötən dövr ərzində şöbə tərəfindən natura ifadəsində bütün məhsul növlərinin istehsalına dair geniş məlumat bazası yaradılmışıdr. Hal-hazırda 21 iri istehsal müəssisə üzrə məlumatlar alınmış və Binəqədi Rayon İcra Hakimiyyətinin rəsmi saytında yerləşdirilmişdir. Bu istiqamətdə işlər davam etdirilir.

Respublikamızda aparılan iqtisadi islahatlar çərçivəsində sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması, investisiyaların təşviqi, institusional islahatların sürətləndirilməsi istiqamətində kifayət qədər ciddi işlər görülmüş və görülməkdə davam edir. Bildiyiniz kimi 6 dekabr 2016-cı il tarixdə Ölkə rəhbərinin müvafiq Fərmanı

ilə 11 əsas sektor və bütövlükdə milli iqtisadiyyat çərçivəsində 2020-ci ilə qədər ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini, onların gerçəkləşdirilməsini təmin edəcək tədbirləri müəyyənləşdirən strateji yol xəritələri qəbul edilmişdir. Bu strateji yol xəritələri sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində Azərbaycanın gələcək inkişaf perspektivlərini dərin elmi əsaslarla müəyyənləşdirən konseptual əhəmiyyətli sənədlər olmaqla, islahatların həyata keçirilməsi üçün bir çox normativ hüquqi sənədlərin yaradılmasında baza rolunu oynamışdır. Bizdə öz növbəmizdə bu mühüm əhəmiyyətli sənədləri rəhbər tutaraq gələcək fəaliyyətimizi bu istiqamətdə qurmalıyıq.

Bildiyiniz kimi Sahibkarlığın inkişaf etdirilməsi istiqamətində vacib şərtlərdən biri də güzəştli şərtlərlə kreditləşmənin təmin edilməsidir ki, bu istiqamətdə Ümumilikdə 2003-2017-cı ilin birinci rübünə nəzər salsaq Sahibkarlığa Kömək Milli Fondu və Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə 596 sahibkara 82,2 milyon manat məbləğində kredit verilmiş və bunun nəticəsində 7042 yeni iş yeri yaradılmışdır.

Son illərdə rayon ərazisində aparılan abadlıq-quruculuq işlərində və keçirilən humanitar aksiyalarda Rayon İcra Hakimiyyəti ilə birlikdə yaxından iştirak edən sahibkarlara o, cümlədən
Fab boya və kimya sənayesi, Altis Qrup of company, Yol-Tikinti Nəqliyyat Servis” MMC, Akabe inşaat, Bakı tekstil fabriki, Xırman şirkəti, Baker şirkəti, Camal LTD, AZ-Filter MMC, üzün ömür süd məhsulları və digər müəssisə rəhbərlərinə öz təşəkkürümüzü bildiririk.

Cənab başçı, icazənizlə Vətəndaşların sosial rifahını yaxşılaşdıran və sahibkarlığın inkişafı istiqamətində xsusi diqqət yetirməli məsələləri qeyd edərdim.

1. Əhalinin məşğulluğunun təmin edilməsi
2. Əhalinin sosial müdafiəsi
3. Rayonda sanitar-epidemioloji vəziyyət
4. Məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi
5. Cəmiyyətdə biznes sahibi olmağa marağın artırılması,
6. Rayonun spesifik xsusiyyətlərinə uyğun xarici investissiyanın cəlb edilməsi
7. Turizmin inkişafına dəstək verilməsi
8. Ölkədə iqtisadiyyatın inkişafı istiqamətində aparılan islahatlar bağlı ictimaiyyətin və sahibkarların məlumatlandırılması

Və son olaraq Cənab Prezidentin öz çıxışlarında qeyd etdiyi kimi hər bir dövlət məmuru – biz hər birimiz xalqın xidmətçisiyik, xalqın və dövlətin mənafeyi uğrunda çalışırıq. Bu baxımdan sahibkarların, iş adamlarının fəaliyyəti üçün əlverişli şərait yaradılması, rayonlara investisiya cəlb edilməsi, yeni iş yerlərinin yaradılması, eləcə də bütün bu məqsədlərin realizasiyasına imkan verən, bu yolda uğuru təmin edən müasir düşüncə tərzinin, ideologiyanın aşılanması-- dövlət qurumlarının, o cümlədən yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin ayrılmaz tərkib hissəsi olmalıdır və biz bu istiqamətdə öz fəaliyyətimizi quracagıq.

## “Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları arasında koordinasiyanın gücləndirilməsi və icra inzibatşılığının təkmilləşdirilməsi”

Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşov

**Hörmətli cənab başçı!**
**Hörmətli Sura üzvləri!**

Dünyada baş verən sürətli və qlobal dəyişikliklər fonunda ölkəmizin gəkəcək inkişafının təmin edilməsində ideoloji işin təşkili indi həmişəkindən dah çox önəm kəsb edir.Bu sahədə yerli icra hakimiyyətlərinin də üzərinə mühüm vəzifələr düşür.

Məlum olduğu kimi Yerli İcra hakimiyyətləri müvafiq ərazi hüdudları daxilində Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli, Fərmanı ilə təsdiq edilmiş Əsasnamə ilə ona həvalə edilmiş vəzifə və səlahiyyətlərini yaratdığı Aparata daxil olan şöbələr vasitəsilə, ərazi strukturuna daxil olan vəzifə və səlahiyyətləri isə Aparatın Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi həmçinin nümayəndəliklər vasitəsilə həyata keçirir.

Aparatın digər şöbələri kimi Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi də öz fəaliyyətini yuxarıda adı çəkilən Əsasnaməyə uyğun olaraq hazırlanmış və Rayon İcra Hakimiyyəti başçısı tərəfindən təsdiq edilmiş Əsasnaməyə uyğun icra edir.

“Yerli icra hakimiyyətləri haqqında” Əsasnamə təsdiq olunandan (6 iyun 2012-ci ildən) keçən müddət ərzində şöbənin, habelə qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin və bələdiyyələrin öz fəaliyyətlərini adıçəkilən Əsasnaməyə, mövcud qanunvericilik aktlarına uyğun qurması üçün xeyli işlər görülmüşdür. Belə ki, ilk növbədə şöbənin və sahə və qəsəbə inzibati ərazi dairələri üzrə nümayəndəliklərin Əsasnamələri hazırlanaraq təsdiq edilmiş, idarəçiliyin, inzibatçılığın təkmilləşdirilməsi, daxili nizam-intizam və etik davranış qaydalarına riayət edilməsi üçün bir sıra normativ aktlar hazırlanmış və görüləcək işlər həmin sənədlərin tələblərinə uyğun qurulmuşdur. Azərbaycan Respublikas prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Rayonun bütün qəsəbələrində və mikrorayonlarında geniş miqyaslı abadlıq və quruculuq işləri aparılmışdır. Təsdiq edilmiş tədbirlər planına uyğun

olaraq 82 yaşayış binasının fasadı müasir üslubda təmir edilmiş, 4 yaşayış binasının fasadı animasiyalı işıqla üzlənilmiş, yaşayış binalarının 711 girişi, 318 zirzəmisi, 128 ədəd lift kabinələri əsaslı və cari təmir edilmişdir. 344 yaşayış binasında 204356 $m^2$ dam örtüyü, 560 fərdi yaşayış evlərinin dam örütüyü, hasarı təmir edilmiş, yeni darvazalar quraşdırılmışdır.Yenidənqurma tədbirləri çərçivəsində rayon ərazisində inzibati və digər binaların təmiri və tikintisi işləri həyata keşirilmişdir. Binəqədi Rayon İcra Hakimiyyətinin inzibati binası müasir üslubda yenidən qurulmuşdur. Rayon İcra Hakimiyyəti başçısının qəsəbə nümayəndəlikləri üçün 3 ədəd inzibati bina, Məntəqə Seçki Komissiyaları üçün 7 bina, 19 yeni xeyir-şər evləri inşa edilmiş, Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin binası və avtomobil qarajı, 14 xeyir-şər evi əsaslı təmir edilmiş, 34 ədəd xeyir-şər evi zəruri avadanlıqlarla təchiz olunmuşdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tikinti sektorunun inkişaf etdirilməsi ilə bağlı tapşırıq və tövsiyələrinə, Nazirlər Kabinetinin 22 yanvar 2016-cı müvafiq Qərarına uyğun olaraq rayon ərazisində yararsız və qəzalı vəziyyətdə olan binaların sökülərək yerində müasir tələblərə uyğun yeni binaların tikintisi və bu binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə "Pilot Layihə" çərçivəsində "Dərnəgül" MTK tərəfindən Dərnəgül qəsəbəsində hər biri 1 girişli 60 mənzilli 2 ədəd 16 mərtəbəli yaşayış binalarının tikintisi işlərinə başlanılmışdır. "RELT HOUSE" MMC tərəfindən Azadlıq prospektində 5, 7 və 9 saylı binalarda ümumilikdə 60 ədəd mənzilin sökülərək yerində 666 mənzilli yeni 7 bloklu yaşayış binalarının tikintisi həyata keçirilir.

Rayon ərazisində icrasına başlanılmış geniş miqyaslı abadlıq tədbirləri çərçivəsində ötən beş il müddətində mikrorayonlar ərazisində məhəllədaxili yollara 478 min $m^2$, qəsəbədaxili yollara isə 960 min $m^2$, ümumilikdə 1 mln 438 min $m^2$ asfalt örtüyü salınmışdır. Abadlıq işləri çərçivəsində rayonun Azadlıq prospektinin, həmçinin, 8-ci mikrorayon C.Xəndan küçəsində nəqliyyat tıxaclarının aradan qaldırılması və nəqliyyatın intensiv hərəkətinin təmin edilməsi məqsədilə yolun yenidən qurulması və genişləndirilməsi işləri həyata keçirilmişdir. Azadlıq prospekti boyunca və C.Xəndan küçəsində Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə yol kənarlarında yaşıl çəmən örtüyünün salınması, ağacların budanması, müxtəlif növ bəzək gül-çiçəklərin əkilməsi, müasir oturacaqların quraşdırılması və avtobus dayanacaqları üçün genişləndirmə işləri həyata keçirilmişdir.

Bununla yanaşı rayon ərazisində bir sıra mühüm əhəmiyyətli yolların çəkilməsi işlərinə başlanılmışdır.

Uğurla davam etdirilən abadlıq və yenidənqurma tədbirlərinin həyata keçirildiyi dövr ərzində sakinlərin asudə vaxtlarında səmərəli istirahəti üçün əlverişli şəraitin yaradılması məqsədilə rayon ərazisində 4 yeni park, o cümlədən, Ümummilli lider "H.Əliyev adına mədəniyyət və istirahət", Biləcəri qəsəbəsində "20 Yanvar", "Milli Qəhrəmanlar" və

“Yuxarı Sulutəpə” parkları inşa edilmiş, Biləcəri dəmiryolşular parkı,C.Enesku, Fərhad Hümbətov və Həmzə Babaşov adına parklar əsaslı təmir edilmiş, rayonun 6, 7, 8, 9-cu kirorayonlarında, Biləcəri, Xocəsən,Binəqədi və M.Ə.Rəsulzadə qəsəbələrində 40 ədəd yeni abad məhəllələr-park salınmışdır. Rayonun Z.Bünyadov və Azadlıq pr0spektlərində, Svetlana Məmmədova, Əhməd Rəcəbli, Mir Cəlal, Həmzə Babaşov, Rəşid İsmayılov, Yəhya Hüseynov, Asəf Zeynallı, Natəvan, Gülməmməd Ramazanov, Cəfər Xəndan, Naxçıvani, Məsud Davudoğlu, və digər kücələrində, Bakı-Sumqayıt şossesində*(sağ və sol hissəsində)*, Biləcəri enişiində, Bakı-Şamaxı şossesində, M.Lomonosov adına universitet yolunda, 28 May qəsəbəsi Şamaxı-Bakı şossesində abadlıq işləri və yaşıllıq zolaqlarının salınması işləri həyata keçirilmişdir.

Həyata keçirilmiş abadlıq və yenidənqurma tədbirləri çərçivəsində rayon ərazisində 340,3 min $m^2$ yaşıl çəmən örtüyü salınmış, 50 000 min kvm sahəyə avtomatlaşdırılmış suvarma sistemləri quraşdırılmış, 740 min 863 ədəd gül-çiçək, ağac və dekorativ bitkilər əkilmiş, 26 700 ədəd landşaft, fasad işıqları, 5 ədəd idman meydançası, 280 ədəd uşaq əyləncə və idman qurğuları, 2 ədəd musiqili fontan, 18 ədəd digər tipli şəlalə və fəvvarə, 20 yanvar parkında güllə yağışı abidəsi, Milli Qəhrəmanların 8 ədəd büstü quraşdırılmışdır.

İdarəetmədə şəffaflığı və əhalinin məmnunluğunu təmin etmək məqsədilə yerlərdə Rayon İcra Hakimiyyəti başçısının əhali ilə keçirilən səyyar görüş və açıq qapı günləri daha mütəşəkkil və intensiv xarakter almışdır. Səyyar görüşlərin keçirilməsi nümayəndəliklərlə birlikdə rayon bələdiyyələrinə də tövsiyə edilmiş, bələdiyyələrin və nümayəndələrin müvafiq ərazinin kommunal xidmət müəssisələrinin nümayəndələrinin iştirakı ilə keçirilən səyyar görüşlər davamlı xarakter almışdır. Son iki il 5 ay ərzində rayonun qəsəbə və mikrorayonlarında 70 səyyar görüş və açıq qapı günləri keçirilmiş,bu görüşlərdə 8380 rayon sakini iştirak etmiş, sakinlər tərəfindən 852 məsələ qaldırılmış,həmin məsələlərin 208 –i yerində həll edilmiış, 64 tədbirlər planı tərtib edilmiş, ümumilikdə qaldırılan məsələlərdən 672-i həll edilmiş, 24 məsələ üzrə aidiyyatı üzrə yuxarı təşkilatlar qarşısında məsələ qaldırılmışdır 140 məsələ isə hazırda icradadır.Qeyd etmək lazımdır ki, keçirilən səyyar görüşlər əhali tərəfindən rəğbətlə qarşılanmış,əhalinin dövlətə, dövlət başçısına, Rayon İcra Hakimiyyətinə inamının daha da artmasına səbəb olmuşdur,

Əhalinin məmnunluğunu təmin etmək məqsədilə nümayəndələrin və bələdiyyə rəhbərlərinin qəbul günlərinin qrafiki hazırlanmış və onun icrası ciddi nəzarətə götürülmüşdür.

Ərazilərdə görülən işlərin hesabatlılığını təmin etmək məqsədilə nümayəndələrin və bələdiyyələrin “Facebook” sosial şəbəkəsində səhifələri yaradılmış və onların gündəlik yenilənməsi təmin edilmişdir.

Əhalinin daha geniş kütləsini yerli özünüidarəetməyə cəlb etmək məqsədilə bələdiyyələrin məhəllə komitələrinin yaradılması, onların bələdiyyələrin fəaliyyətinə cəlb edilməsi və aktivləşdirilməsi diqqət mərkəzində olmuşdur. Ümumilikdə rayonun 5 bələdiyyəsində 224 məhəllə komitəsi yaradılmışdır və fəaliyyətdədir.

Əhali ilə aparılan işlərin, sosial şəbəkələrlə işin, müvafiq ərazidə əhali ilə bələdiyyələrin və icra hakimiyyətinin qarşılıqlı fəaliyyətini təmin etmək məqsədilə bələdiyyələrdə ictimai-siyasi sektorlar yaradılmış və onların fəaliyyətlərinin qurulması üçün tədbirlər görülmüşdür. Qeyri-hökumət təşkilatları ilə, ağsaqqallarla, veteranlarla, ziyalılarla aparılan işin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə Rayon Ağsaqqallar Şurasının tərkibinə yenidən baxılmış, Rayon Ziyalılar Cəmiyyəti yaradılmış, onların qəsəbələrdə və mikrorayonlarda şöbələri yaradılmış, həmin qurumlarla bələdiyyələrin və nümayəndəliklərin qarşılıqlı fəaliyyəti qurulmuş, bu işin keyfiyyətinin yaxşılaşdırılması üçün tədbirlər görülmüşdür. Müvafiq ərazidə əhalinin uçotunun düzgün qurulması, onun sosial, etnik, dini, iqtisadi və s. tərkibinin müəyyən edilməsi məqsədilə "Ev təsərrüfatlarının uçotu" (Təsərrüfatbaşına) kitabları tərtib edilmiş, onların Respublikada ilk dəfə elektron qaydada aparılması təmin edilmişdir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu təcrübə Prezident Administrasiyası tərəfindən bəyənilmiş və yayılması tövsiyə edilmişdir.

Əhalinin aztəminatlı, sosial müdafiəyə ehtiyacı olan təbəqələri, xüsusilə şəhid ailələri, Qarabağ əlilləri və bunlara bərabər tutulan şəxslərin sosial ehtiyaclarının təmin edilməsi, mənzil-məişət problemlərinin həlli, sağlamlıqlarının təmin edilməsi istiqamətində məqsədyönlü işlər aparılmış, bu istiqamətdə çoxsaylı layihələr həyata keçirilmiş, yardımlar paylanmış, ayri-ayri şəxslər müalicə müəssisələrinə göndərilmiş və s. tədbirlər görülmüşdür.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində nümayəndəliklər və bələdiyyələr, müvafiq ərazidə yerləşən təhsil və mədəniyyət müəssisələri, ictimai təşkilatlar və Yeni Azərbaycan Partiyasının ərazi ilk partiya təşkilatları ilə birlikdə maraqlı və yaddaqalan tədbirlər təşkil etmişlər.

Rayonun qəsəbə və mikrorayonlarda Rayon İcra Hakimiyyətinin rəhbərliyi altında nümayəndələr və bələdiyyələr tərəfindən aparılan işlər bu qurumların nüfuzu və hörmətinin xeyli dərəcədə artmasına səbəb olmuş, nəticədə rayon əhalisinin dövlətə, dövlət başçısına inamı və etibarı daim yüksəlməkdədir və bu özünü ötən illərdə keçirilən 4 seçkidə əyani şəkildə birüzə verdi. Sözsüz ki, Ölkədə cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında aparılan daxili və xarici siyasət kursu, möhtəşəm layihələrin icrası və əldə edilən uğurlar, bu tədbirlərin fonunda rayonumuzda bütün sahələrdı həyata keçirilən işlər. Rayon ərazisində ictimai-siyası və təbliğat- təşviqat işlərinin yüksək səviyyədə təşkilinə tam əsas verir.

Bununla yanaşı, nümayəndəliklərdə və bələdiyyələrdə görülən işlərin təhlili göstərir ki, rayonda davamlı sabitliliyinin təmin edilməsi, bütün sahələrdə aparılan işlərin və həyata keçirilən islahatların ideoloji təminatı, əhalinin məmnunluğunun təmin edilməsi, bu işlərin, xüsusilə ictimai-siyasi işin təşkili səviyyəsindən daha çox asılıdır və bu işlərin təkmilləşdirilməsinə ciddi ehtiyac vardır.

Bu məqsədlə aşağıdakı təklifləri təqdim etməklə onların həyata keçirilməsi üçün müvafiq tədbirlər planının tərtib edilməsi və onların icrasının nəzarətə götürülməsini təklif edirik:

**1.** Şöbənin əməkdaşları, İcra Hakimiyyəti başçısının inzibati və ərazi dairələri üzrə nümayəndəliklərinin hər bir əməkdaşı, bələdiyyələrin rəhbərləri və bələdiyyə qulluqçuları tərəfindən Azərbaycan Respublikası Prezidentinin çıxış və nitqlərinin, müsahibələrinin, məqalələrinin, imzaladığı Qanun, fərman və sərəncamların, Dövlət Proqramlarının öyrənilməsi və təbliğinə daha diqqətlə yanaşılmalıdır.

**2.** Müvafiq ərazidə yerləşən əmək kollektivlərində, təhsil müəssisələrində ölkə Prezidentinin apardığı siyasəti özündə əks etdirən müxtəlif görüşlərin keçirilməsi, müxtəlif ziyalı qruplar ilə, ekspertlərlə görüşlərin keçirilməsi;

**3.** Yerlərdə ictimai-siyasi vəziyyətə təsir göstərən əsas amillərin öyrənilməsi və lazımi tədbirlər görülməsi üçün ziyalılar, gənclər, qadınlar, milli azlıqlar, dini icmalar, ictimai təşkilatlar, siyasi partiyaların yerli şöbələri və ictimai-siyasi mühitə təsir edə biləcək digər qurum və əhali qrupları ilə daha sıx əməkdaşlıq və koordinasiya qurulmalıdır.

**4.** Ərazidə fəaliyyət göstərən təhsil, mədəniyyət, səhiyyə müəssisələri, xidmət sahələri, QHT-lər və digər təşkilatlarla koordinasiyalı işin daha da yaxşılaşdırılmasına ehtiyac vardır.

**5.** Bələdiyyələrdə fəaliyyət göstərən Məhəllə Komitələrinin nüfuzlu şəxslərdən təşkil edilməklə yekunda yerli demokratiyanın inkişafına, geniş əhali kütləsinin idarəetmə prosesində iştirakına şərait yaradmaq məqsədi ilə Məhəllə Komitələrinin fəaliyyətinin yaxşılaşdırılmasına ehtiyac vardır. göstərir).

**6.** Rayonun qəsəbə və sahə inzibati ərzi dairələri üzrə nümayəndəliklərində, bələdiyyələrdə, əmək intizamının, icra intizamının, protokol qaydalarına, etik davranış qaydalarına əməl olunmasına, qurum rəhbərləri tərəfindən vətəndaşların qəbul qrafikinə əməl olunmasının vəziyyətinə, təşkilinə və nəticələrinə, qurumda vətəndaş müraciətlərinə baxılması vəziyyətinə, bələdiyyələrdə idarəetmənin təşkilinin vəziyyətinə, bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları arasında mənəvi-psixoloji vəziyyətin öyrənilməsinə diqqət yetirilməsi;

**7.** Rayonda yaradılmış mövcud infrastruktur obyektlərinin (parkların, xiyabanların, elektrik, işıqlandırma, su, kanalizasiya xətlərinin, idman meydançalarının, şəlalələrin, çəmənliklərin, talvarların, söhbətgahların, oturacaqların və

s.) saxlanmasına nəzarətin təmin edilməsi, bu işlərə İctimai Şuranın, QHT-lərin, MMMC-lərin, ictimai təşkilatların, bələdiyyələrin məhəllə komitələrinin cəlb edilməsi;

Hesab edirik ki,bu gün burda səsləndirilən fikirlər və bizim şöbənin də təklifləri bu iclasda təsdiq olunacaq tədbirlər planında öz əksini tapacaq və biz bütünlüklə öz fəaliyyətimizi həmin tədbirlər planı əsasında quracağıq.

## “Vətəndaşların müraciətlərinə baxılarkən ideoloji işin təşviqi”

Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş
şöbəsinin müdiri Elnur İmanov

**Hörmətli cənab başçı, hörmətli şura üzvləri və iclas iştirakçıları!**

Vətəndaşların müraciətlərinə baxılması ölkədə aparılan ideoloji işlə birbaşa əlaqədardır. Vətəndaş məmnunluğu təmin edilərkən və müraciətlərə baxılarkən son illərdə ictimai-siyasi və sosial-iqtisadi sahədə əldə olunmuş nailiyyətlərin aşılanması bu sahədə mühüm istiqamətlərdəndir. Bütün bunlara isə təkmil normativ hüquqi baza olmadan nail olmaq mümkün deyildir. Vətəndaşların müraciət etmək hüququ Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsində təsbit olunmuş, bu sahəni tənzimləyən “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanunu təkmilləşdirilərək yeni redaksiyada qəbul olunmuş, sahibkarların şikayətlərinə baxılması prosesinin tənzimlənməsi məqsədilə həm mərkəzi, həm də yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmışdır. Vətəndaşların müraciətlərinə baxılması prosesində müasir informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərindən aktiv istifadə olunur. Belə ki, Vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya bazası yaradılmış, bütün qurumlarda çağrı mərkəzləri fəaliyyət göstərir.

Bütün dövrlərdə vətəndaşlar müxtəlif dövlət orqanlarına müraciətlər ünvanlamış və müraciətlərin dinamikası ildən ilə dəyişir. Bu dəyişiklik ölkədə baş verən ictimai-siyasi və sosial-iqtisadi proseslərlə üzvi surətdə birbaşa əlaqədardır.

Məlumat üçün bildirim ki, 2016-cı il ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlardan, ümumilikdə **3630** müraciət (2015-ci illə müqayisədə **292** vahid və ya **7,5%** az) daxil olmuşdur.

Lakin müraciətlərin sayının çox və ya az olması hələ özlüyündə mövcud situasiyanı tam əks etdirmir. Müraciətlərin tərkibi, daha çox hansı sahə ilə bağlı olmasının təhlili daha mühümdür.

2016-cı ildə Binəqədi rayonundan daxil olmuş vətəndaş müraciətlərindən **2781-i** ərizə (daxil olmuş müraciətlərin 76,6%-i; o cümlədən, 2015-ci illə müqayisədə 242 vahid və ya 8% az) və **846-sı** (daxil olmuş müraciətlərin 23,3%-i; o cümlədən, 2015-ci illə müqayisədə 50 vahid və ya 5,6% az) şikayət olmuşdur.

Daxil olmuş müraciətlərin böyük hissəsi vətəndaşların mənzil-məişət problemlərinin həlli, sosial-müdafiə məsələləri (əmək məsələləri, işlə təmin olunma, maddi yardım göstərilməsi v.s.) ilə əlaqədar olmuşdur.

Torpaqlarımızın 20 faizinin erməni separatçıları tərəfindən işğal edilməsi, yüzlərlə yaşayış məntəqəsindən olan 1 milyondan çox qaçqın və məcburi köçkünlərin evlərindən didərgin düşməsi onların mənzil problemlərinin həll edilməsi zərurətini ortaya çıxarır. Qeyd etmək lazımdır ki, Binəqədi rayonunda da minlərlə qaçqın və məcburi köçkün məskunlaşmışdır. Məcburi köçkünlərin yeni mənzillərlə təmin edilməsi və onların məskunlaşma problemlərinin həlli cənab Prezident İlham Əliyev və Birinci vitse prezident Mehriban xanım

Əliyevanın şəxsi diqqətindədir. Hər il məcburi köçkünlər üçün yeni müasir tipli yaşayış binaları tikilir və minlərlə məcburi köçkün ailəsi bu mənzillərdə məskunlaşır. Qeyd etmək lazımdır ki, imtiyazlı kateqoriyadan olan vətəndaşların (məcburi köçkünlər, müharibə əlilləri, şəhid ailələri v.s.) mənzil-məişət problemlərinin həlli daim dövlət tərəfindən diqqətdə saxlanılır. Eyni zamanda vətəndaşların sosial mənzillərlə təmin edilməsi ilə əlaqədar cənab Prezidentin Sərəncamı ilə Mənzil İnşaatı Dövlət Agentliyi və "MİDA" MMC yaradılmışdır. Sosial mənzillərlə təmin olunmaq istəyən vətəndaşların sənədlərinin qəbulu prosesinə cari ilin may ayının 1-dən etibarən başlanılmışdır.

Qlobal iqtisadi böhran şəraitində neftin qiymətinin aşağı düşməsi vətəndaşların işlə təmin olunması və məşğulluq səviyyəsinin yüksəldilməsi sahəsinə xüsusi diqqət yetirilməsi zərurətini yaratmışdır. Qeyd etmək lazımdır ki, əhalinin məşğulluğunun artırılması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Bununla bağlı bir sıra Dövlət Proqramları təsdiq edilmiş və vətəndaşların məşğulluq səviyyəsinin artırılması sahəsində bir çox işlər görülmüşdür. "Ailə Biznesinə Asan Dəstək" (ABAD) layihəsi və "Vətəndaşların Özünüməşğulluq Proqramı" bu sahədə vətəndaşlara göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bu proqramların icrası bir nəfərin yox, bir neçə nəfərin eyni vaxtda məşğulluq probleminin həllinə şərait yaradır.

Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən vətəndaşların müraciətlərinə və onların problemlərinə həssas yanaşma sayəsindədir ki, vətəndaşlar tərəfindən yuxarı dövlət orqanlarına ünvanlanan müraciətlərin sayında ildən ilə azalma müşahidə olunur. 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından ümumilikdə 1247, digər mərkəzi hakimiyyət orqanlarından isə 754 müraciət daxil olmuşdur.

Daxil olan müraciətlər qanunda nəzərdə tutulmuş müddətlərdə icra olunur, rayonun digər idarə, müəssisə və təşkilatlarında araşdırılmalı olan müraciətlər isə baxılması üçün həmin orqanlara göndərildikdə vətəndaşın müraciətində qaldırdığı məsələnin həlli diqqətdə saxlanılır. Rayon İcra Hakimiyyəti qanunvericilikdə nəzərdə tutulmuş şəkildə həmin müraciətlərə baxılması prosesini nəzarətdə saxlayaraq yekunda görülmüş işlər barədə orqanlardan ətraflı cavab sənədi alır.

Məlum olduğu kimi vətəndaş məmnunluğunun təmin edilməsi, vətəndaşların müraciətlərinə daha çevik reaksiya verilməsi məqsədilə 2013-cü ilin fevral ayında yerli icra hakimiyyəti orqanları arasında ilk dəfə Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidməti yaradılmışdır. Sakinlərin Müraciət Xidməti müasir informasiya kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə edərək sakinlərin müraciətlərinə çevik reaksiya verməklə yanaşı, rayon ərazisində fəaliyyət göstərən digər qurumların analoji xidmətləri ilə əlaqələndirmə funksiyasını yerinə yetirir. Sakinlərin Müraciət Xidmətinin digər bir üstünlüyü müraciət etmiş vətəndaşla canlı ünsiyyətin yaradılmasıdır ki, bu da ideoloji təbliğat işinin qurulması üçün mühüm vasitələrdən biridir. Sakinlərin Müraciət Xidmətinə əsasən kommunal təsərrüfat xidməti ilə əlaqədar müraciətlər daxil olur.

Sakinlərin Müraciət Xidmətinə 2016-cı ildə daxil olmuş zənglərin sayı **41795** olmuşdur ki, buda 2015-ci illə müqayisədə **12092** vahid və ya **40** % çoxdur. Qeydiyyata alınmış icraat vərəqələrinin sayı **8589**, 2015-ci illə müqayisədə **1377** vahid və ya **19**% çox, orta günlük zənglərin sayı **114** olmuşdur ki bu da 2015-ci ilin orta günlük zəng sayından **33** vahid və ya **40** % çoxdur.

Əgər bir neçə il bundan öncə vətəndaşların müraciətləri xidmətlərin göstərilməməsi ilə əlaqədar olurdusa, hazırda müraciətlər daha çox xidmətlərin keyfiyyəti və çeşidi ilə əlaqədardır.

Son dövrlər rayon ərazisində təbii qazın təzyiqinin aşağı olması və qaz təchizatında fasilələrin yaranması halları müşahidə edilməkdədir. Məlum olduğu kimi, qaz təchizatı sistemində aparılan təmir işləri, istismara yararsız olan avadanlıqların yeniləri ilə əvəz olunması, yeni qaz kəmərlərinin inşa olunması, həmçinin istifadə müddəti başa çatan, xətaları normadan artıq olan sayğacların yeni tipli ölçü cihazları ilə əvəz olunması tədbirləri görülməkdədir ki, təmir işlərinin davamlı aparılması zamanı qazın təchizatında fasilələrin tez-tez yaranması vətəndaşların narazılığına səbəb olmuşdur.

Eyni zamanda qazın təzyiqinin az olması mənzillərin istilik enerjisi ilə təchizatına da təsir göstərmişdir. Belə ki, istilik təchizatında yaranmış problemlərlə əlaqədar **1280** icraat vərəqəsi qeydiyyata alınmışdır ki, bu da ümumi müraciətlərin **7**%-ni təşkil etmişdir.

Rayon İcra Hakimiyyətinə daxil olmuş müraciətlər təhlil edilərkən məlum olur ki, vətəndaşlar həm icma, həm də fərdi xarakterli müraciətlər ünvanlayırlar. Vətəndaşların həm yazılı, həm şifahi müraciətlərinə baxılarkən onların düzgün yönləndirilməsi də mühüm amillərdəndir.

Vətəndaşların müraciətlərinin dinlənilməsi, onları narahat edən problemlərin aradan qaldırılması işində vətəndaşların qəbulu prosesinin mühüm əhəmiyyəti var. Binəqədi Rayon İcra Hakimiyyətində vətəndaşların qəbuluna xüsusi önəm verilir. Qəbul qrafikə uyğun təşkil olunur, bundan başqa xüsusi imtiyazlı şəxslər (milli qəhrəmanlar, Qarabağ əlilləri, şəhid ailələri v.s.) növbədənkənar qəbul edilirlər. 2016-cı ildə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında **5214** vətəndaş qəbul edilmişdir. O cümlədən, RİH başçısı tərəfindən **284** vətəndaş qəbul edilmişdir. Həmçinin, 2016-cı ildə RİH başçısının sakinlərlə yerlərdə **41** səyyar görüşləri, qəbulları və digər xarakterli görüşləri keçirilmişdir ki, bu tədbirlərdə də **7380** sakin iştirak etmişdir.

Həmçinin qeyd etmək lazımdır ki, Rayon İcra Hakimiyyəti başçısının tapşırığına əsasən inzibati və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə, bələdiyyələrdə, mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarında və xidmət təşkilatlarında vətəndaşların qəbulu, onların qaldırdığı problemlərə adekvat reaksiya verilməsi hər zaman nəzarətdə saxlanılır, bununla əlaqədar monitorinqlər keçirilir və "gizli müştəri" metodundan istifadə olunaraq qəbula gələn vətəndaşın dinlənilməsi və onun qaldırdığı problemlərin həlli səviyyəsi yoxlanılır.

Qəbul zamanı məmurun vətəndaşı etik normalara riayət etməklə dinləməsi, xoş rəftarı, ona qayğı göstərməsi bir sıra hallarda vətəndaşın problemi yerində həll edilə bilməsə də, onun düzgün istiqamətləndirilməsi və müvafiq izahat işinin qurulması vətəndaş məmnunluğuna gətirib çıxarır.

**Hörmətli cənab başçı, hörmətli iclas iştirakçıları!**

Vətəndaş müraciətlərinə baxılması sahəsində ictimai-siyasi və təbliğat işlərinin təşkili məqsədilə aşağıdakılar təklif olunur:

- Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş təkrar müraciətlər cavablandırılarkən vətəndaşla profilaktik işin aparılması və vətəndaşın düzgün yönləndirilməsi, əsassız çoxsaylı müraciətlər ünvanlayan sakinlərlə müvafiq profilaktik və ideoloji işin aparılması;

- Öz şəxsi maraqlarından doğan niyyətləri həyata keçmədikdə ümummilli mənafelərə zidd hərəkətlərlə dövlət məmurlarını təhdid edən vətəndaşlarla hüquq-mühafizə orqanları da cəlb edilməklə profilaktik işin aparılması;
- Əhalinin imtiyazlı, aztəminatlı həssas təbəqələrindən daxil olan müraciətlərə baxılarkən və onlar qəbul edilərkən həmin şəxslərə xüsusi diqqətlə yanaşılması, dövlətin aztəminatlı və imtiyazlı təbəqələr üçün verdiyi güzəştlərin mahiyyəti barədə və bu güzəştlərdən hansı şəkildə istifadə edə biləcəklərinin onlara izah işlərinin təkmilləşdirilməsi;
- Dövlətin sosial dayaqlarına zərbə vuran boşanma halları, erkən nigahlar, məişət zorakılığı və ailədaxili münaqişələrlə əlaqədar müraciətlərə baxılarkən problemin aradan qaldırlması istiqamətində profilaktik və ideoloji işin görülməsi, "Azərbaycan ailəsi" modelinin təbliğ edilməsi;
- Rayonda fəaliyyət göstərən kommunal xidmət müəssələrinin qaynar xətlərində vətəndaşların müraciətlərinin qəbulu və onlara baxılması işinin təkmilləşdirilməsi üçün həmin xidmətlərin əməkdaşları ilə treninqlərin keçirilməsi.